,,İnşaat mühəndislərinin peşə inkişafına yardım,, (ACE) İctimai Birliyinin Avropa Şurası İnşaat Mühəndislərinin Baş Assambleyasına üzv seçilməsi münasibətilə Azərbaycan Memarlıq və İnşaat Universitetində tədbir keçirildi.

Tədbirdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin professor- müəllim heyəti, “AzINKO” holdinqin direktor müavini Agalar Allahyarov, Hidroxüsusitikinti QSC-nin prezidenti Zülfü Abbasov, ,,Azərinşaatlayihə,, institutunun baş mühəndisi Xəlil Osmanov, “Cahaninşaat” MMC-nin icraçı direktoru Fariz Tapdıqov, “Bakımənziltikinti” departamentinin direktoru Maarif Rəhimi, “Azərsutəslayihə” institutunun Layihənin baş mühəndisi Arif Hacıyev, “Tikintiyə nəzarət Dövlət Agentliyi Ekspertiza” idarəsinin baş mütəxəssisi İlham Poluxov və ayrı-ayrı holdinqlərin, şirkətlərin rəhbərləri, nümayəndələri, yüksək ixtisaslı mütəxəssislər iştirak edirdilər.

Tədbiri giriş sözü ilə ST və MKS fakültəsinin dekanı, ACE-nin İdarə Heyətinin üzvü Zakir Musayev açıq elan etdı.

ACE-nin İdarə İeyətinin sədri Aydın Piriyev geniş məruzə ilə çıxış etdi. Tədbir geniş fikir mübadiləsi, təbriklər və təkliflərlə yadda qaldı.

İctimai Birliyin Dövlət qeydiyyatına alınmasında göstərdiyi dəstəyə görə Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə xanıma tədbir iştirakçıları adından təşəkkür elan edildı.












photo:sevinj aslanova

